UOT 297

# İSLAM DİNİNDƏ HƏMRƏYLİK ANLAYIŞI VƏ ONUN MÜASİR DÖVRÜN ÇAĞIRIŞLARI BAXIMINDAN ƏHƏMİYYƏTİ

**Məmmədəli BABAŞLI***

***Açar sözlər:*** *həmrəylik, yardımlaşma, qardaşlıq, müsəlman ölkələri, müasir çağırışlar.*

## Giriş

Məlum olduğu kimi, sosial varlıq olaraq yaradılmış bəşər övladı ilahi hikmətə görə kollektivdə yaşamaq və qarşılıqlı fəaliyyət içində olmaq məcburiyyətindədir. Bunun başlıca səbəbi insanın xəstəlik və təbii fəlakətlər qarşısında acizliyi, gündəlik həyatda həmcinslərinin yardımına möhtac olması ilə izah olunur. Çünki insan anadan doğularkən, ayaq üstə durmağı və ilk addımlarını atmağı öyrənərkən, böyüyərkən, yaşlanarkən, hətta vəfat edərkən başqalarının yardımına ehtiyac duyan bir varlıqdır. Əks halda, yer üzündə Allahın xəlifəsi olan insanın təkbaşına ehtiyac duyduğu maddi və mənəvi tələbatlarını təmin etməsi mümkün olmazdı.

Qeyd etdiyimiz səbəblərdən də insanın cəmiyyət içində həyatını davam etdirmək zərurəti düşünmə qabiliyyətindən sonra onu digər canlılardan fərqləndirən ən bariz cəhətlərdən biri kimi dəyərləndirilir. Məhz bir-birinə möhtac olduqlarına görə birlikdə yaşayan insanların qarşılıqlı yardımlaşma və həmrəylik içində olmaları labüddür. Təbii ki, bu da "insanlar arasında informasiya mübadiləsi, qarşılıqlı təsir, onların bir-birini qavraması və anlaması"nın gerçəkləşdiyi şəraitdə cərəyan edir (7, s.61).

Deyilənlərdən belə qənaətə gəlmək olar ki, hər bir insanın müəyyən bir sistem içində yaşaya bilməsi üçün cəmiyyətin əsrlərlə formalaşmış mənəvi dəyərlərinə, bəşəri münasibətlərə uyğun davranması vacibdir. Yalnız bu qəbildən həyat tərzi sayəsində müəyyən fərqliliklərin mövcud olmasına rəğmən, cəmiyyətin üzvləri arasında birlikdə yaşamaq şüuru və ənənəsi formalaşır. Bu həyati zərurətin nəticəsidir ki, İslam dininin öz mənsublarına təlqin etdiyi ən vacib dəyərlər arasında həmrəylik, yardımlaşma, birlikdə hərəkət etmə, qaynayıb-qarışma kimi ictimai dəyərlər üstünlük təşkil edir.

Mənsubu olduğumuz İslam dini özündən olanı sevmək, başqalarına hörmət etmək, həmrəylik, fədakarlıq və yardımlaşma məziyyətləri ilə səciyyələnən bir toplum meydana gətirməyi məqsədəuyğun hesab edir. Göndəriliş məqsədinə uyğun olaraq, ardıcıllarının hüquq və vəzifələrini, xoşbəxt ola bilmələri üçün toplum həyatının şərtlərini təsbit edir. Bunun ən bariz örnəyini Allah Rəsulunun (s.ə.s) örnək həyatında görmək mümkündür. Hicrətdən sonra gördüyü ilk işlərdən biri 1500-ə yaxın müsəlmanın, təxminən 4500 müşrik ərəbin və 4000 yəhudinin yaşadığı 10 minlik Mədinə əhalisinin qarşılıqlı hüquq və vəzifələrini ehtiva edən bir vəsiqə tərtib etmək olmuşdur. Bununla da fərqli inanc və etnik kimliklərə malik ünsürlərin birlikdə yaşamasına təminat verən, dövlətdən daha çox toplumu əsas alan bir siyasi birliyi təsis etmişdir. Qurduğu ilk Mədinə şəhər dövlətinin 47 maddəlik tarixi sənədində və açıqladığı sözləşmə mahiyyəti daşıyan bəyannamədə hər kəsi birlik və bərabərliyə dəvət etmişdir. "Mədinə Vəsiqəsi" adı verilən bu sənəd ilk yazılı konstitusiya kimi dünya hüquq tarixinə düşmüşdür. Digər bir diqqətçəkən məqam da bu vəsiqəni qəbul edənlər arasında baş verə biləcək bütün anlaşılmazlıqların Allahın hökmlərinə və Peyğəmbərin bəyanlarına uyğun həll ediləcəyi bəndi olmuşdur.

Digər tərəfdən, İslam Peyğəmbəri (s.ə.s.) Əvs və Xəzrəc qəbilələrinin yüz lərlə sürən qanlı qəbilə savaşlarına son qoymuşdur. Qısa zaman kəsiyində bir-birinə düşmən kəsilmiş qəbilələrdən barış içində yaşayan əmin-amanlığı və insanlığı əsas alan sosial bir toplum təşkil etməyə müvəffəq olmuşdur. Bundan başqa, hicrətdən təxminən beş ay sonra məkkəli mühacirlərlə mədinəli ənsarlar

* *İlahiyyat üzrə fəlsədə doktoru, AMEA akad. Z.Bünyadov adına Şərqşünaslıq İnstitutu*
*e-mail: mbabasov@yahoo.com*

arasında qardaş ailə praktikasının təməlini atmışdır. Mədinəli ənsarla malı-mülkü müşriklər tərəfindən talanmış, doğma yurdundan didərgin düşmüş məkkəli mühacirləri qardaş elan etməklə həmin dövrə qədər bəşər tarixində bir ilkə imza atmışdır. Qardaş ailə modelinə görə hər iki ailə birlikdə çalışacaq, qazanclarını paylaşacaq, bir-birilərinə varis olacaqlardı. Aralarında islam qardaşlığının təsis edilməsi ilə ənsar Mədinəyə gələn mühacirlərə qucaq açmış və əlindəki imkanları sonuna qədər paylaşmaq lütfünü göstərmişdir. Məhz bu həmrəylik vəsiləsilə xeyir işlərdə bir-biri ilə yarışan səhabəyə Allahın davası uğrunda mücadilədə, İslam dininin yayılmasında böyük uğurlar nəsib olmuşdur. Maddi və mənəvi fədakarlıqda örnək olan bu nadir şəxsiyyətlər İslam Peyğəmbərinin (s.ə.s.) yetişdirdiyi Əsri-səadət nəslini təşkil etmişdirlər. Təbii ki, bu da inanan insanların əsas hədəfinin Uca Allahın (c.c) hökmünə tabe olmaqla və İslam Peyğəmbərinin (s.ə.s.) həyatını örnək qəbul etməklə yaxşılıq etməsinin mümkün və vacib olduğunu göstərir.

Daha əvvəl də qeyd etdiyimiz kimi, hər bir insanın kollektivdə yaşamaq zərurəti təkzibolunmaz həqiqətdir. Sadəcə bəzi dövrlərdə və zaman kəsiyində bu məsələ daha çox əhəmiyyət kəsb etmiş, hətta həyati zərurət halını almışdır. Bununla belə, hər bir insanın təbiətində ümumilik, kollektivçilik olduğu kimi, fərdilik və şəxsilik də vardır. Fərdilik və ümumilik prinsiplərinin üst-üstə düşməmə halları isə istisna olunmur. Belə olan təqdirdə, hər kəsin ehtiyacına və marağına cavab verəcək ümumi bir təmələ əsaslanmaq vacibdir. Təbii ki, İslam dinində bu təməli mötəbər mənbələr sayılan Qurani-Kərim və sünnə, həmçinin İslam tarixinin parlaq səhifələrindən, fikir öndərlərinin həyatından nümunələr təşkil edir.

**1. Qurani-Kərimdə həmrəylik anlayışının mahiyyəti**

Mövzu ilə bağlı hər iki mənbədə konkret misallara keçməmişdən əvvəl qeyd etmək lazımdır ki, İslam dini həmrəylik məsələsinə daha geniş məna tutumu və baxış tərzi qazandırır. Əvvəla, insanlar arasındakı həmrəylik məsələsinə baxışın təməlində bütün kainatın aləmlərin Rəbbinə aid olduğuna əsalanan tövhid inancını vacib hesab edir. Mömin üçün Allahın varlığına və birliyinə inanmaqla bərabər, Allah Rəsulunun (s.ə.s.) ümməti, eyni məfkurənin yolçusu olmaq kimi amilləri də həmrəylik üçün əhəmiyyət kəsb edən səbəblərdən sayır. Başqa sözlə desək, həmrəyliyin əldə olunması üçün inanc, məqsəd, arzuların, hətta davranışların da eyni olması şərtlərini əsas alır. Bunun ən bariz örnəyi kimi, möminin təkbaşına namaz qılarkən belə "edirəm" və "diləyirəm" yerinə, bilavasitə "*Biz yalnız Sənə ibadət edir və yalnız Səndən kömək diləyirik"* (1:5) deyə müraciət etməsi göstərilir.

Təbii ki, İslam mənbələrində həmrəylik anlayışı ilə bağlı işlənən leksemlərə və onların işlənmə tezliyinə nəzər salmaq mövzunun mahiyyətinə aydınlıq gətirər. Ərəb dili lüğətlərinə müraciət göstərir ki, "həmrəylik" sözünün qarşılığı olaraq eyni və yaxud yaxın mənada "istinad etmək, söykənmək, bel bağlamaq" mənalarını verən "سَنَدَ" feilindən düzələn "bir-birini dəstəkləmə, bir-birinə arxa olma" mənalarını verən "تَسَانُدٌ", "istinad etmə, dayanma, söykənmə" mənalarında işlənən "اِسْتِنَادٌ" (8, 2/51) kəlmələrindən istifadə olunur (21, 40/526). Düzdür, تَسَانُدٌ ismi-məsdəri daxil olmaqla bu kökdən düzələn sözlərin heç biri bilavasitə Qurani-Kərimdə keçmir, ancaq onların ehtiva etdiyi mənalara yaxın məna çalarları olan sözlərə rast gəlinir. Həmrəylik məfhumuna yaxın məna çaları kəsb edən bənzər sözlərdən Qurani-Kərimdə işlənən "yardımlaşma" mənasında "تَعَاوُنٌ", "bir-birinə kömək etmə" mənasında "تَظَاهُرٌ" və "تَنَاصُرٌ" kəlmələrini xüsusilə qeyd etmək olar. Bununla yanaşı, ərəb dilində "həmrəylik" mənasında "تَضَامُنٌ", "bir fikirdə olma, həmrəy olma" mənasında "تآلُفٌ", "qardaşlaşma" mənasında "تآخٍ", "bir-biri ilə əlaqə qurma, birləşmə" mənasında "تَوَاصُلٌ" kəlmələrindən də istifadə olunur. Müasir ərəb dilində həmrəyliyin ekvivalenti kimi, əsasən "qarşılıqlı zaminlik, yekdillik həmrəylik" (9, 2/469) mənalarını verən "تَكَافُلٌ" kəlməsi işlədilir (21,40/526). Eyni zamanda, bir çox ayədə bilavasitə və ya dolayı yolla həmrəylik və yardımlaşmanın mənəvi və maddi aspektlərinə diqqət cəlb edilir.

Təbii ki, həmrəylik anlayışının qarşılığı olaraq eyni və ya yaxın mənalarda istifadə edilən qeyd etdiyimiz mövcud kəlmələrin Qurani-Kərimdə hansı surələrdə və kontekstdə işlənməsi də maraq kəsb edir. Bu məqsədlə aparılan müvafiq təhlil aşağıdakı nəticələri ortaya çıxarır:

Qurani-Kərimdə həmrəyliyin əsasını təşkil edən yardımlaşma ilə bağlı bir çox terminlər vardır. Onlardan "yardım etmə, yardımlaşma" mənasını verən عون kökündən düzələn "تَعَاوَنَ" sözü "əl-Maidə" surəsinin 2-ci ayəsində feilin təsdiq və inkar bildirən əmr formasında olmaq şərti ilə iki dəfə *"Yaxşılıq etməkdə və Allahdan qorxmaqda bir-birinizə yardım edin"* və *"Günah işlər görməkdə və düşmənçilikdə bir-birinizə köməkçi olmayın"* kontekstində keçir. Göstərilən ayələrin məalından bir daha göründüyü kimi, möminlərə günah iş görməkdə, düşmənçilik etməkdə bir-birinə kömək göstərmək deyil, yaxşı əməldə, təqvada və pis əməllərdən uzaq durmaqda əlbir olmaq tövsiyə edilir. Bir sözlə, Quranda həmrəyliyin əsas şərti olaraq yaxşı əməldə, bağışlamaqda və təqvada möminlərin bir-birinə köməyi nəzərdə tutulur. Günah işlərdə, düşmənçilikdə və intiqam almaqda yardımlaşma isə qəti surətdə qadağan olunur. Ən gözəl surətdə yaradılmış insanlar yaxşılığa və gözəlliyə, xeyirli işlərdə həmrəyliyə dəvət olunurlar.

Eyni kökdən düzələn "مُعاوِنَةً" və "إعانة" ismi-məsdərləri keçməklə bərabər, "مَعونة" sözü də eyni mənanı ehtiva edir (8, 2/79). Həmçinin "əl-Maun" surəsinin Qurani-Kərim məallarında *"və az bir şey verməkdən belə imtina edirlər"* və yaxud "*Və (xalqa)zəkat verməyi qadağan edərlər(yaxud xəsislik göstərib bir iş üçün qonum-qonşuya lazım olan qab-qacağı verməkdən imtina edərlər)"* şəklində təqdim edilən 7-ci "الْمَاعُونَوَيَمْنَعُونَ" ayəsində keçən "الْمَاعُونَ" kəlməsi "az bir şey vermək" mənasında tərcümə olunur. Həmin ayəni təfsir edən Axund Mir Məhəmməd Kərim əl-Bakuvi "zəkat verməyib, qonşuya lazım olan bəzi şeyləri də (məsələn, balta, qazan, boşqab və s. əşyanı) müvəqqəti istifadə etməsi üçün verməyə mane olar" (10, 3/664) şəklində açıqlayır.

Həmrəylik və yardımlaşma mənalarını ehtiva edən feilin keçmiş, indiki-gələcək zamanlarında və şərt formasında işlənən "تَظَاهُرٌ" kəlməsi də üç müxtəlif ayədə *"Onlara qarşı pislik və düşmənçilik etməkdə bir-birinizə kömək edirsiniz" ("*əl-Bəqərə", 85); *"Bir-birini dəstəkləyən iki sehr (Tövrat və Quran)!" Həmçinin demişdilər: "Biz heç birinə inanmırıq!" ("*əl-Qasəs", 48);*"Əgər ona qarşı bir-birinizə dəstək versəniz..." ("*ət-Təhrim", 4) kontekstində keçir. Həmçinin "تَنَاصُرٌ"kəlməsi"əs-Saffat" surəsində olmaqla, cəmi bir yerdə 25-ci ayədə və "*(Günahkarlara deyiləcək:)"Sizə nə olub ki, bir-birinizə kömək etmirsiniz?"* şəklində keçir.

Ərəb dilində "تَكَافُل" sözünün sinonimi kimi "həmrəylik, qarşılıqlı məsuliyyət" mənasında "تَضَامُنٌ" və "تآلُفٌ" kəlmələrindən də istifadə olunur. Mövcud kəlmələrdən "تَكَافُلٌ" və "تآلُفٌ" bilavasitə Qurani-Kərimdə keçməsə də "تَكَافُلٌ" kəlməsi ilə eyni kökdən düzələn və "zəmanət, təminat" mənalarını ifadə edən (8, 2/469) "كَفَالَة" kəlməsi müxtəlif formalarda və məna çalarlarında (3/37,44; 4/85; 16/91;20/40; 21/85; 28/12; 38/23,48; 57/28) ayələri də daxil olmaqla on yerdə işlədilir. "Zulkifl" şəklində isim olaraq keçdiyi (21/85; 38/48) "kifl" kəlməsinin "pay" (4/85;57/28) məna-larında işləndiyi iki ayə istisna edilərsə, digərləri "zəmanət vermək" və ya "zamin olmaq" mənalarını ehtiva edir. Eyni zamanda, "kəfalət" kəlməsi hədislərdə daha çox "kiminsə təminatını öz üzərinə almaq" mənasında işlədilir. Doğrudur, ərəb dilində "kəfə:lət" sözünə yaxın "zəmanət, təminat" mənasını verən "ضَمَان" "zamin olma" kəlməsi də vardır (8, 2/164). Ancaq adətən şəxs planında işlədilən "kəfə:lət"dən fərqli olaraq "damə:n" sözü daha çox maddi məsuliyyət səciyyəsi daşıyır.

Nəhayət, Qurani-Kərimdə yardımlaşma ilə bağlı zəkat, sədəqə, infaq, ihsan, isar kimi müxtəlif təməl məfhumların da olduğunu qeyd etmək lazımdır (21, 43/332). Maddi fədakarlıqla bağlı olan bu məfhumların ortaq səciyyə daşıdığını nəzərə alaraq sadəcə infaq haqqında məlumat verərək mövzunu yekunlaşdırmağı məqsədəuyğun hesab edirik. Bir çox ayədə möminlərin bir-birinə maddi yardım etmələrinə təşviq üçün istifadə edilən lüğəvi mənası "xərcləmə, sərf etmə", dini termin olaraq isə Allahın razılığını qazanmaq üçün şəxsin öz sərvətindən xərcləməsi" kimi işlədilən "إنفاق" kəlməsi də həmrəyliyi təmin edən fəzilətlərdəndir (21, 22/289). Qurani-Kərimdə "əl-İsra" surəsinin *"De: "Əgər siz Rəbbimin rəhmət xəzinələrinə sahib olsaydınız belə, yenə də (onun) xərclənib tükənməsindən qorxaraq xəsislik edərdiniz"* məalındakı yüzüncü ayəsində "yoxsul düşmə" mənasını verən kəlmə 70-ə yaxın ayədə "xərcləmə" mənasında işlənir (21, 22/289). Sonuncu mənada işlənən ayələrə misal olaraq *"Əgər sən yer üzündə olanların hamısını sərf etsəydin belə, onların qəlblərini birləşdirə bilməzdin"* (8:63) ayəsini göstərmək kifayətdir.

Eyni zamanda, möminlərin qardaş olması prinsipindən çıxış edilərək aşağıdakı ayələrdə həmrəylik üçün psixoloji və əxlaqi zəmin hazırlanır. Belə ki, Qurani-Kərimin "əl-Hucurat" surə-si-nin 10-cu ayəsində *"Möminlər, həqiqətən də qardaşdırlar. Elə isə qardaşlarınızı barışdırın və Allahdan qorxun ki, sizə rəhm edilsin"* ifadəsi ilə bütün inananların dində qardaş olduğu elan edilir. "əl-Maidə" surəsinin 2-ci ayəsində *"Yaxşılıq etməkdə və Allahdan qorxmaqda bir-birinizə yardım edin. Günah işlər görməkdə və düşmənçilikdə bir-birinizə köməkçi olmayın"* bəyanı ilə də hansı şərtlər daxilində birlikdə və bərabər olmağın mahiyyəti açıqlanır.

İslam dininin mənsubları arasında həmrəylik şüurunun hakim olmasından bəhs edərkən din qardaşlığı anlayışını da xüsusi qeyd etmək lazımdır. Ərəb dilində "qardaşlıq" sözünün qarşılığı olaraq işlədilən "أُخُوَّةٌ" (uxuvvə) ilə yanaşı, onunla eyni kökdən düzələn və "qardaşlaşma" mənasını ifadə edən "تآخٍ" (tə:xin), "تَأَخَّى" (tə:əxxə:), "مؤاخاة" (muə:xə:) kəlmələrindən istifadə edilir. Məfhum olaraq "qardaşlıq" kəlməsi ərəb dilində eyni ata-anadan və ya onlardan birindən dünyaya gələnlər arasındakı qan qohumluğunu göstərir, ancaq eyni sülaləyə, qəbilə və ya millətə mənsub olma, eyni inanc və dəyərləri, baxışları paylaşma kimi ortaq cəhətləri olan fərdlər, yaxud qruplar arasındakı birlik və həmrəylik ruhunu da ifadə edir" (21, 24/485).

İslam dinində "qardaşlıq" məfhumuna bu qədər böyük əhəmiyyət verilməsinin bir hikməti də qəbilə təəssübkeşliyi, təəssübkeşlik anlayışlarının əksinə, tövhid inancını əsas alan mənəvi birlik, həmrəylik və paylaşma məsuliyyətini xatırlatmaqdır (21, 24/486). Ancaq cahiliyyət dövrü üçün səciyyəvi olan qan qohumluğuna əsaslanan təəssübkeşlik məfhumundan fərqli olaraq İslam dinidə bu anlayış daha çox tövhid inancını əsas alan mənəvi birlik, həmrəylik və paylaşma məsuliyyətinə diqqəti çəkmək məqsədilə işlənir. İslama görə, din qardaşlığı möminlərin Allaha iman etmələri səbəbilə ortaya çıxmış, hətta qan qardaşlığından da üstün tutulan bir səciyyə daşıyır (9, s.369). Maraqlıdır ki, Qurani-Kərimdə "qardaş" sözünün qarşılığı olan "أَخٌ" sözünün cəm formalarından biri olan "إخوان" kəlməsi həm nəsəb, həm din qardaşlığı mənasında işlənir. Bununla yanaşı, möminlərin bir-birinə qardaş olduqlarını bəyan edən "əl-Hucurat" surəsinin 10-cu "إِنَّمَا الْمُؤْمِنُونَ إِخْوَةٌ..." ayəsi istisna olmaqla, ayədə keçən digər "إِخْوَة" cəm forması sadəcə qan qardaşlığı mənasını ifadə edir. İslam alimi Fəxrəddin ər-Razinin izahına görə, mövcud istisna din qardaşlığının ən az soy qardaşlığı qədər əhəmiyyət kəsb etdiyini vurğulamaq üçündür (21,24/486). Həmçinin qardaşlıq xüsusunda inanc, məqsəd və əməl birliyinin əsas alınması səbəbindən Quranda ("Ali-İmran", 103; "ət-Tövbə", 11; "əl-Hucurat", 10 və "əl-Haşr", 10) müsəlmanlar bir-birinin qardaşları olaraq səciyyələndirilir (21, 24/486).

Yuxarıdakı ayələrin təhlilinin də göstərdiyi kimi, İslama görə din qardaşlığı üçün ilk növbədə dəyərlər əsas alınır (19, s.95). Xüsusilə, "Ali-İmran" surəsinin 103-cü və "əl-Hucurat" surəsinin 10-cu ayəsində əvvəla möminlərin insanlara qarşı pis niyyət və əməllərdən uzaq olmaları, daha sonra imkanları daxilində yaxşılıq etmələri üzərində durulur. Bununla da Qurani-Kərim müsəlmanların birliyinin təmin edilməsi, təfriqəyə düşməmələri üçün həmrəylik, qardaşlıq, maddi və mənəvi fədakarlıq kimi mövzulara diqqəti cəlb edir. Hətta mömin bir şəxsin başqaları haqqında gözəl düşünməklə savab qazanmasına dair fikri təlqin edir. Paylaşmağı imanın inkarolunmaz şərtlərindən biri kimi görür və əməli surətdə həyata keçirməyi mühüm vəzifə sayır.

İslam dininə görə, qardaşlaşma prosesində və qardaşlığın qurulmasında "mən" yerinə "biz"in keçməsi "biz" şüurunun əsas amil olması son dərəcə vacibdir (22, s.34). İslam qardaşlığının bir səciyyəvi cəhəti də onun bütün insanları əhatə etməsi ilə bağlıdır. Bunu Quranın təbliğ mərhələsində olanlara "ey insanlar", dəvəti qəbul etdikdən sonra qardaşlığa daxil olanlara da "ey möminlər" deyə müraciətində görmək mümkündür (16, s.495). Beləliklə, Qurani-Kərim bir tərəfdən İslam qardaşlığını başlıca prinsip olaraq ortaya qoyarkən, digər tərəfdən də bütün insanlığa xitab edir.

**2. Sünnə prizmasından yardımlaşma və həmrəylik anlayışı**

Məlum olduğu kimi, Allah-Təala tərəfindən insanın qəlbinə onu mələklərdən də üstün hala gətirəcək bir çox qabiliyyətlər yerləşdirmişdir. Kitablar və peyğəmbərlər vasitəsilə inkişaf etdirilən bu qabiliyyətlər Qurani-Kərimdəki ilahi hökmlərdə olduğu kimi, Hz.Peyğəmbərin (s.ə.s.) sünnəsində də insanlara təbliğ və izah edilmişdir. Müsəlmanlar üçün Allah Rəsulu (s.ə.s.) təkcə vəhyi

çatdıran bir elçi deyil, söz və hərəkətləri ilə Quranda mötəbər və məqbul sayılan həyat tərzinin canlı mücəssəməsi olmuşdur. Vəhyə əsaslanan tərbiyə metodu ilə yaşadığı dövrün zülmət çağını işıqlı əsrə çevirmiş, vəhşətdən mədəniyyət və bədəvi insanlardan ideal bir cəmiyyət formalaşdırmışdır. Qurana xas söz, davranış və həyatı, bir növ "yaşayan Quran" olması sayəsində ilahi həqiqətlərə uyğun inanan insan modelini ortaya qoymuşdur. Yaxşılığa çağırmaq, xeyirli işlər görməyi əmr etmək və pis əməlləri qadağan etmək məqsədilə insanlarla bir yerdə yaşayan, onların əziyyətlərinə səbr edən möminin savab baxımından daha üstün olduğunu bəyan etmişdir.

Ardıcıllarına qardaşlıq haqqına riayət etmək, əli və ya dili ilə heç bir müsəlmana zərər verməmək, heç kimə xor baxmamaq, təkəbbürlənməmək, pis söz söyləməmək qəbilindən üstün məziyyətlər aşılamışdır: *"Müsəlman müsəlmanın qardaşıdır, ona zülm etməz və onu təhlükə qarşısındaköməksiz qoymaz..."* (Buxari, Məzalim 3); *"Müsəlman dilindən və əlindən insanların əmin-amanlıqla olduğu şəxsdir"* (Nəsai, İman, 8); *"... Müsəlmanın müsəlman qardaşını alçaldıb xor baxması ona günah kimi kifayətdir. Hər bir müsəlmanın qanı, malı, şərəfi və namusu digər müsəlmana haramdır"* (Müslim, Birr, 32); *"...Ərəbin ərəb olmayandan, ərəb olmayanın ərəbdən, ağın qaradan, qaranın ağdan təqva xaricində heç bir üstünlüyü yoxdur..."* (İbn Hənbəl, V, 411).

Müasirlərinə və ümmətinin sonrakı nəsillərinə "insanlara mərhəmət etməyənə Allah da mərhəmət etməz" düşüncəsilə cəmiyyəti meydana gətirən fərdlərin bir bütünün hissələri olduğu gerçəyini təlqin etmişdir: *"Möminlər hissələri bir-birinə möhkəm pərçimlənmiş bir bina kimidir"* (Buxari, Salat, 88); *"Möminlər bir-birini sevməkdə, bir-birinə qarşılıqlı mərhəmət və şəfqət göstərməkdə eynilə orqanlarından biri xəstələnəndə digər orqanların da yuxusuzluq və yüksək hərarətlə bir ağrını bölüşən bir bədənə bənzəyir" (*Müslim, Birr, 66); *"Özünüz üçün istədiyinizi qardaşınız üçün də istəmədikcə (həqiqi mənada) iman etmiş olmazsınız"* (Tirmizi, Sifətul-qiyamə, 59).

Müsəlmanlara qeybət, həsəd, sui-zənn, nankorluq kimi mənfi duyğulardan uzaq olmağı və bir-birinə kin və nifrət bəsləməməyi, bir-birindən küsüb əlaqəni kəsməməyi tövsiyə etmişdir. Qul haqqına diqqət etməyi, bir müsəlmanla üç gündən artıq küsülü qalmamağı, bütün insanlara yaxşılıq etməyi ifadə etmişdir. Müsəlmanın müsəlman qardaşını alçaldıb xor baxmasının ona günah olaraq kifayət edəcəyini xatırlatmışdır: *"Müsəlman müsəlmanın qardaşıdır. Ona xəyanət etməz, yalan danışmaz və onu çətin vəziyyətdə yardımsız qoymaz..."* (Tirmizi, Birr 18); *"Müsəlman müsəlmanın qardaşıdır; qardaşına zülm etməz, onu alçaldıb təhqir etməz və ehtiyacı olanda onu darda qoyub getməz"* (Müslim, Birr 32).

Örnək həyatı ilə yaşadıqları dövrdən və coğrafi məkandan asılı olmayaraq inanan insanlara qonşusu ac ikən evində rahat yatmamağın, əlindəki imkanlardan dindaşlarının xeyri üçün istifadə etməyin, dara düşmüş müsəlmanlara kömək etməyin vacibliyini təlqin etmişdir. Şübhəsiz ki, bu mövzu ilə əlaqədar hədislərin sayını artırmaq olar, ancaq İslam dininin həmrəyliyə verdiyi əhəmiyyəti nəzərə çatdırmaq üçün səciyyəvi olması baxımından verilən örnəklərlə kifayətlənirik. Gördüyümüz kimi, insanın ağlına, qəlbinə, ruhuna və vicdanına xitab edən Allah Rəsulu (s.ə.s.) sadəcə doğruları təbliğ etməklə qalmamış, müsəlmanlar arasında yardımlaşma və həmrəyliyi varlığın qayəsi olaraq görən bir ümmət meydana gətirmişdir. İnsanlar arasındakı "şəkil" fərqlərini bir zənginlik olaraq görmüş, onların "darağın dişləri kimi" bərabər olduqlarını söyləyərək bir-birinə qarşı qardaşlıq şüuru ilə rəftar etmələrinin yolunu öyrətmişdir. Həmin dövrdən etibarən müsəlmanlar din qardaşlığı hüququnun prinsiplərini rəhbər tutaraq tək vücud olma yolunda irəliləməyə məcburdurlar. Çünki yer üzündə ədaləti təsis etmək, güclünün deyil, haqlının yanında olmaq üçün ümmət olmaq vacibdir. İslam dini mənsublarının birliyinə xələl gətirə biləcək, insanın toplumda rahat şəkildə yaşamasına mane olacaq davranışları qəti surətdə qadağan etmişdir. Eyni zamanda, eqoizm, qısqanclıq, həsəd, yalan, iftira, qeybət, sui-zənn və s. bu qəbildən mənfi davranışlara son vermək və sosial həmrəyliyi həyat tərzinə çevirmək üçün veriləcək cəzaları müəyyən etmişdir.Bəşəriyyətə və dünya mədəniyyətinə böyük töhfələr vermiş bir nəslin varisləri olaraq xələfləri qarşısında vəzifələr qoymuşdur. Bu vəzifələrin də başında insanları günahlardan və azğınlığa gedən yollardan çəkindirmək, xeyirxahlığa təşviq etmək və ona aparan yolları asanlaşdırmaq gəlir. Təbii ki, müstəmləkəçiliyin, qəsbin və təcavüzün yeni formalarının ortaya çıxdığı XXI əsrdə tərəqqinin hərəkətverici qüv-

vələrinin, milli varlığın meyarlarının dəyişməsi nəticəsində irəlidə gedən dövlətlərin və xalqların bütün diqqəti dünyanın yeni üsullarla idarə olunmasına yönəldiyi də nəzərə alınmalıdır (12). Bu səbəblə, hər bir müsəlman da din qardaşlarının dərisinin rənginin, dilinin, irqi mənsubiyyətinin müxtəlif olmasına, sərvətinin azlığına və ya çoxluğuna baxmadan, birlik və həmrəylik naminə əlindən gələni etməlidir. Hətta din qardaşlarının dərdinə laqeyd qalan, onların dərdlərini öz acısı kimi paylaşmayan kimsələr onlardan olmaq hüququnu itirmiş sayılırlar. Təəssüf hissi ilə qeyd etmək lazımdır ki, "mən" və mənfəət üzərində köklənmiş dünyada savaşların və zülmün olması qaçılmazdır. Bu səbəblə, günümüzdə müsəlmanlar aralarındakı kin və nifrət kimi İslamın qadağan etdiyi naqisliklərdən xilas olmağa səy göstərməli, din qardaşlığının şərti olan hüquq və vəzifələri lazımi şəkildə yerinə yetirməlidirlər. Ancaq bunu edərkən də istənilən halda səbir və təmkinlə davranmalı, İslamın cahanşümul prinsiplərinə xələl gətirə biləcək, zorakılıq kimi qəbul ediləcək hərəkətlərə qətiyyən yol verməməlidirlər.

### 3. Müsəlmanların mövcud durumu, müasir çağırışlar və qarşıda duran vəzifələr

"Soyuq savaş"ın başa çatmasının ardınca "mədəniyyətlər toqquşması" tezisinin dövriyyəyə buraxılması Bjezinskinin Hind okeanı sahili boyunca keçən "qeyri-sabitlik qövsünü" (25, s.15) təhlükə mənbəyi kimi görən konsepsiyasına aktuallıq qazandırdı. 1991-ci ildə Əlcəzairdə keçirilən parlament seçkilərində İslami Qurtuluş Cəbhəsinin qələbə qazanmasına münasibəti Qərbin demokratiya anlayışında ikili standartların açıq-aydın təzahürü oldu. Eyni zamanda, Ermənistanın ölkəmizə qarşı yeritdiyi terror, işğal və soyqırımı siyasətinə obyektiv qiymət verilmədi, Azərbaycanın ərazi bütövlüyü, dövlət sərhədlərinin toxunulmazlığı və suverenliyi prinsipinin müdafiəsində lazımi qətiyyət göstərilmədi. Əksinə, daha çox Dağlıq Qarabağ ermənilərinin öz müqəddəratını təyin etmək hüququ vurğulanaraq işğalçı ilə işğala məruz qalan eyniləşdirildi. 1992-ci ilin oktyabr ayında ABŞ Konqresində keçmiş sovet respublikalarına dövlət yardımının göstərilməsini tənzimləyən "Azadlığa Dəstək Aktı" qəbul edilərkən "Ermənistana və Dağlıq Qarabağa qarşı blokadanı və digər güc tətbiq etməsi" əsas gətirilərək mövcud qanuna edilən 907-ci düzəlişlə Azərbaycanın rəsmi qurumlarına birbaşa yardıma qadağa qoyuldu. Maraqlıdır ki, Cənubi Qafqazda münaqişə ocağı kimi tanınan digər separatçı rejimlərə yardım etmədiyi halda, ABŞ sadəcə 1998-2011-ci illərdə humanitar yardım adı altında qondarma Dağlıq Qarabağ rejiminə 60 milyon dollar məbləğində birbaşa maliyyə yardımı ayırdı(6).

Fərqli dini kimlikləri səbəbindən 1992-1995-ci illərdə Avropanın mərkəzindəki Bosniya-Herseqovina müsəlmanlarına qarşı aparılan savaşa, masştabına görə II Dünya müharibəsindən sonra törədilən ən böyük soyqırımına vaxtında müdaxilə edilmədi (5, s.271). Müsəlmanlar, əslində onlar bəhanə edilərək İslam dininə qarşı kampaniyaya rəvac verildi (2, s.359). Mənsublarına radikalizm, ekstremizm, fundamentalizm, nəhayət dünya miqyasında hadisələrin istiqamətini dəyişdirən və motivlərinin hələ də tam açılmadığı 11 sentyabr terror aktından sonra bir də terrorizm, islamofaşizm damğaları vuruldu. Nəticədə İslam dini və müsəlmanlar bir növ beynəlxalq terrorizmin sinoniminə, haqsız hücumların hədəfinə çevrildi (4, s.341). Həmçinin terror aktlarının əsasən müsəlmanlar tərəfindən törədilməsi nəticəsində İslam və ümumiyyətlə islami şüarlar altında istənilən fəaliyyət təhlükə mənbəyi olaraq səciyyələndirilməyə başlandı (25, s.9). Terrora qarşı mübarizə bəhanəsi ilə Qərbin təcavüzkar siyasətinin qurbanı olan Əfqanıstan və İraq işğal edildi, ərazi baxımından Afrikanın ən böyük ölkəsi olan Sudan iki yerə bölündü.

2011-ci ildə Tunisdə başlayan və sonra "ərəb baharı" adını alan zəncirvarı vətəndaş itaətsizliyinin, inqilabların yeni ssenarisi ilə bahardan çox qışa dönən bu proses Tunis, Misir, Liviya, Suriya, Yəmən kimi ölkələrdə sonu görünməyən qarşıdurma, vətəndaş müharibələri ilə nəticələndi. 2012-ci ildə Misirin müstəqillik tarixində xalq tərəfindən demokratik yolla seçilən ilk prezidenti Məhəmməd Mursi qanunsuz şəkildə 2013-cü ildə çevriliş nəticəsində hərbçilər tərəfindən hakimiyyətdən uzaqlaşdırılaraq həbs edildi. Kütləvi qarşıdurmalarda "Müsəlman qardaşları" hərəkatının çoxlu sayda tərəfdarı qətlə yetirildi. Bundan başqa, bəzi xarici dövlətlərin təşviqi ilə başlayan vəkalət savaşları region dövlətlərinin də müdaxiləsindən sonra Suriya, Yəmən və Livanı arzuolunmaz

məcraya sürüklədi. Xüsusilə vətəndaş savaşı girdabına yuvarlanmış Suriya və Yəmənin dramı İslam ümmətinin birliyinə vurulan ən sarsıdıcı zərbə oldu. "Ərəb baharı"nın başladığı ilk ölkə olan Tunisdə, etnik və dini baxımdan həssas bir ölkə olan Livanda siyasi gərginlik, iqtisadi və sosial tənəzzül, vətəndaş qarşıdurması hələ də sengiməmdi.

Nəticədə bəzi güc mərkəzlərinin "islama qarşı islamdan istifadə etmək" planı və Böyük Yaxın Şərq Layihəsi mərhələli şəkildə həyata keçirilməyə başlandı. Beləliklə, Henri Kissincerin məşhur "bu savaş müsəlmanlarla xristianların deyil, müsəlmanlarla müsəlmanların savaşı olacaq" proqnozu özünü doğrultdu (5, s.271). Bunun ən bariz örnəyi 2013-cü ilin aprelində "əl-Qaidə"nin İraq qanadının lideri Əbu Bəkir əl-Bağdadinin Suriyadakı "əl-Nusra Cəbhəsi" ilə birləşdiklərini elan etməsinin ardınca yaranan "İraq Şam İslam Dövləti" (İŞİD) oldu. İraq və Suriya ərazisində fəaliyyət göstərən, sözün əsl mənasında dəhşət rəmzinə çevrilən, böyük dövlətlər tərəfindən istifadə edildiyi ehtimal olunan İŞİD-in sayəsində dünyada İslamın imicinə növbəti zərbə vuruldu. Qərbin ictimai rəyində İslam mənsublarının mədəni cəmiyyətdə yeri olmayan "barbar", "radikal", "təməlçi", "terrorçu" obrazı formalaşdırıldı, Qurani-Kərim "vaxtı keçmiş və faydası olmayan bir kitab", İslam dini "bədxassəli xərçəng" olaraq təqdim edildi (5, s.271-272). Maraqlıdır ki, yezdilər istisna olmaqla, digər qeyri-müsəlmanlara bölgəni tərk etmək və ya vergi ödəmək şərti qoyan İŞİD dindaşlarını mürtəd elan etməklə və onları ağlasığmaz vəhşi üsullarla öldürərək əsas hədəfinin müsəlmanlar olduğunu göstərdi. Xüsusilə, savaş açdığı şiə əhalini qətlə yetirməklə, onların məscidlərini dağıtmaqla dünya müsəlmanları arasında islam birliyinə ən böyük zərbəni vurdu. Qərb ölkələrindəki radikal müsəlmanları cihad şüarı ilə Yaxın Şərqə cəlb etməklə bölgədə onların zərərsizləşdirilməsinə, böyük dövlətlərin Yaxın Şərqə müdaxilə etməsinə zəmin hazırladı. Müsəlmanların timsalında düşmən obrazı formalaşdıran bir sıra düşüncə quruluşlarının və onların ruporuna çevrilmiş media orqanlarının İslam dinini qlobal sülh üçün ən böyük təhlükə olaraq göstərməsinə xidmət etdi (5, s.271). Çində ölçüyəgəlməz zülmə məruz qalan uyğur türklərinin, Myanmada dini fanatizmin qurbanları olan müsəlman rohincaların faciəsi, Yaxın Şərqdə İslam adından çıxış edən radikal qrupların törətdikləri vəhşiliklər dini hisslərin təhrik edilməsinin bəşəriyyət üçün necə böyük bir təhlükə olduğunu göstərdi (4, s.341).

"Ərəb baharı"nın başladığı vaxtdan etibarən qarşıdurmalar nəticəsində yüzminlərlə insan qətlə yetirildi, milyonlarla insan isə həyatda qalmaq üçün bu toqquşmaları idarə edənlərin ölkələrinə sığınmaq məcburiyyətində qaldı. Təbii ki, islam coğrafiyasında baş verən qarşıdurmaların və müharibələrin davamlı xarakter alması Avropaya miqrant axınını gücləndirdi. Məhrumiyyətlərin girdabında çırpınan Şərq kontrastı nəticəsində cənubdan şimala, şərqdən qərbə doğru miqrasiya gücləndi (1, s.25). Nəticədə Avropa ölkələrində müsəlmanların sayca üstünlük təşkil etmə ehtimalı, bəzi Avropa ölkələrində islami şüarlarla törədilən terror aktları bəzi siyasi, irqçi və şovinist dairələrə rasizmi, ksenofobiyanı təşviq edən çağırışlar üçün fürsət verdi. Digər tərəfdən, Avropanın bir sıra ölkələrində etnik və dini mənsubiyyətinə görə miqrantlara münasibətdə ayrı-seçkiliyə yol verildi. Macarıstanın miqrantların ölkəyə girişinə mane olmaq üçün sərhəddə nəhəng divar inşa etməsi, Slovakiya və Çexiyanın sadəcə xristian dininə mənsub miqrantları qəbul etmək barədə qərarı bunun inkarolunmaz sübutu oldu. Nəhayət, sağçı "Almaniya üçün Alternativ" (AfD) partiyasının sədri Frauke Petry tərəfindən səsləndirilən - "Lazım gələrsə, alman polisi ölkəyə qanunsuz daxil olmağa cəhd edən miqrantlara atəş açmalıdır" təklifi Avropadakı miqrant probleminə mövcud yanaşmanın nə qədər təhlükəli olduğunu göstərdi. Münaqişə bölgələrindən qeyri-qanuni yollarla Avropa ölkələrinə keçməyə çalışan on minlərlə miqrant Aralıq və Egey dənizlərinin sularında həyatlarını itirdilər.

Təbii ki, yuxarıda təsvir etdiyimiz zillətin, acınacaqlı vəziyyətin səbəblərini sadəcə islam əleyhdarlarının və ya müəyyən dairələrin fəaliyyəti ilə izah etmək doğru olmaz. Yaşanan bu faciələr haqlı olaraq "İslam dünyası adlı bir dünyanın var olub-olmadığı" (17, s.188) və nicat İslamdadır gerçəyinin islam ölkələrində nə üçün təmin olunmadığı sualını doğurdu. Həmçinin ənənəvi müsəlman ölkələrinin bugünkü vəziyyətinə nəzər saldıqda, sözdə olmasına rəğmən, əksər hallarda həmrəylik anlayışının tətbiqini görmək mümkün deyil. Əgər çoxluğu təşkil edən sağlam təfəkkürlü və mötədil müsəlmanlar öz aralarında gerçək həmrəyliyi təmin edə bilsəydilər, meydan İslamı yanlış

şərh və tətbiq edən "əl-Qaidə", "İŞİD", "Boko haram", "əş-Şəbəb" və bənzər terror qruplaşmalarına qalmazdı. Təbii ki, qorxunun hakim olduğu toplumdan da qarşılıqlı sevgi və qardaşlığın təzahürü olan həmrəylik gözləmək qeyri-mümkündür (22, s.51).

Halbuki tarix boyu milyonlarca müsəlmanı bir-birinə yaxınlaşdırıb tək vücud və vahid bir topluluq halına gətirən ünsür islam həmrəyliyi olmuşdur. Dünyanın hər hansı bir bölgəsində zülm görən müsəlmanların acısı bütün müsəlmanlar tərəfindən də hiss edilmişdir. Nisbətən yaxın tarix etibarı ilə belə bir həmrəyliyin ən bariz örnəyini dünya müsəlmanlarının Çanaqqala savaşında qardaş Anadolu insanları ilə birlikdə yazdıqları möhtəşəm qəhrəmanlıq dastanında görmək olar. İslam dünyası səfərbər olmuş, könüllülər cəbhədə savaşmış, yardım kampaniyaları təşkil edilmiş və bununla da həqiqi qardaşlıq örnəkləri nümayiş etdirilmişdir. Bu halda keçən əsrdə Fələstində, Şimali Kiprdə, Bosniyada yaşanan və günümüzdə Əfqanıstanda, Kəşmirdə, Yəməndə, Suriyada, İraqda, Liviyada, Şərqi Türküstanda din qardaşlarının düçar olduqları faciələr hər bir müsəlmanı narahat etməyə bilməz. Təbii ki, keçən əsrin əvvəllərindən etibarən erməni daşnakları tərəfindən məqsədyönlü və ardıcıl şəkildə həyata keçirilən işğala, təcavüzə məruz qalan Azərbaycan da istisna təşkil etmir. Beynəlxalq hüquq normaları, insan haqları və ədalət anlayışı ilə bir araya sığmayan sözügedən təcavüzdə misli görünməmiş qəddarlığa yol verilmişdir. Çar Rusiyası ilə başlayan, sovet hakimiyyəti dövründə müxtəlif məkrli üsullarla həyata keçirilən ermənilərin ekspansiya siyasəti indi də xarici havadarların dəstəyi ilə davam etdirilir.

Təəssüf ki, dünya birliyi ölkələrinin ikili standartlar prinsipindən çıxış etməsi, BMT və ATƏT kimi beynəlxalq təşkilatların öz təklif və qətnamələrini həyata keçirmək üçün təxirəsalınmaz addımlar atmaması problemin həllinə mane olur. Həmçinin burada ayrı-ayrı ölkələrin maraqları, xristian təəssübkeşliyi və digər amillər də rol oynayır. Bir qayda olaraq, Dağlıq Qarabağ münaqişəsində dini amilin rolunun olmadığı ifadə edilsə də bu tezis hələlik bəzi xristian dövlətlərinin mövqeyində əksini tapmır. Tarixən milli və dini azlıqlara qarşı ənənəvi dözümlülük, tolerantlıq nümayiş etdirən ölkəmizə qarşı bu münasibət təəssüf hissi doğurur. Şübhəsiz, bu şəraitdə Azərbaycanın islam həmrəyliyi amilinə istinad etməsi başa düşüləndir. Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həlli ilə bağlı islam ölkələrinin ciddi və konkret dəstəyinə ehtiyac vardır (13, s.45). Məhz bu səbəbdən Azərbaycan Prezidentinin 8 fevral 2017-ci il tarixində "əl-Cəzirə" telekanalına verdiyi müsahibədə "İndi müsəlman dünyasının əvvəl heç zaman olmadığı qədər daha çox birliyə ehtiyacı var" fikri Dağlıq Qarabağ münaqişəsinin həllində İslam həmrəyliyi amilinin rolunun vacib olduğunu vurğulaması əhəmiyyət kəsb edir. Əlbəttə, 1991-ci ildən İslam Əməkdaşlıq Təşkilatına (İƏT) üzv olan Azərbaycanın bu təşkilatla və ayrı-ayrı üzv ölkələrlə qarşılıqlı inama əsaslanan faydalı diplomatik münasibətlər qurması, onların Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ədalətli mövqe tutması istiqamətində atdığı məqsədyönlü addımlar erməni tərəfini qane etmir.

2015-ci ildə İslam Əməkdaşlıq Təşkilatı Xarici İşlər Nazirlərinin Şurası tərəfindən "Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü nəticəsində işğal olunmuş Azərbaycan torpaqlarında islam dininə aid tarixi-mədəni irsin və ibadət ocaqlarının dağıdılması və təhqir olunması"na dair qəbul olunmuş qətnamə dini zorakılıq və ayrı-seçkiliyin Ermənistan tərəfindən yürüdülən siyasətin tərkib hissəsi olmasının sübutu baxımından əhəmiyyət kəsb edir. 2016-cı ilin 14-15 aprelində İstanbulda İƏT dövlət başçılarının XIII Zirvə toplantısında Dağlıq Qarabağ probleminin həll edilməsi istiqamətində təmas qrupunun yaradılması haqda qərarı da Ermənistanı təşvişə saldı. Havadarlarının xristian təəssübkeşliyi amilindən və dünyadakı mövcud islamofobiya kampaniyasından məharətlə istifadə edən Ermənistan Azərbaycanın sözügedən haqqına kölgə salmaq üçün həmlə başlatdı. Bu məqsədlə Azərbaycanın haqlı mövqeyini "əl-Qaidə" və İŞİD kimi radikal qruplaşmalarla əlaqələndirməyə çalışdı. 2016-cı ilin aprel döyüşlərində Azərbaycan Ordusunun uğurlu əməliyyatları zamanı erməni tərəfi bir daha yalan məlumatlar yaydı. Ancaq Azərbaycan tərəfindən zamanında verilmiş məntiqli bəyanatlar ermənilərin növbəti yalanının əsassız olduğunu sübuta yetirdi. Bununla belə, İƏT Ermənistanı açıq-aydın təcavüzkar kimi tanıyan qətnamələr qəbul etdiyi halda, Ermənistanın "münasibətlərini möhkəmləndirməyə və ya normallaşdırmağa yönəlmiş cəhdlərinə" (32) bəzi müsəlman ölkələrinin müsbət yanaşması təəssüf hissi doğurur. Digər tərəfdən,

ermənilər İƏT çərçivəsində ərəb ölkələrinin Azərbaycana dəstəyinə mane olmaq məqsədilə Livan, Suriya, İraq başda olmaqla, bir sıra ərəb ölkələrindəki erməni diasporu amilindən istifadə etməyə çalışırlar. Xüsusilə, 2002-ci ildə təxminən 150 min ermənin yaşadığı Livanda rəsmi statusa malik erməni icması 6 deputatla ölkə parlamentində və bir nazir postu səviyyəsində hökumətdə təmsil olundular (24, s.9). "Daşnaksutyun", Ramkavar" və "Qnçak" terror təşkilatlarının nümayəndəliklərinin uzun müddət bir növ "erməni diasporunun paytaxtı rolu vəzifəsini yerinə yetirən Beyrutda" (23, s.6) yerləşməsi də məlumdur. Bütün bunların nəticəsidir ki, vaxtı ilə ASALA-ya ev sahibliyi etmiş və PKK kimi terror təşkilatına dəstək vermiş Livan qondarma erməni soyqırımını tanımış ilk ərəb ölkəsidir. 2004-cü ildə olduğu kimi, 2008-ci ilin 14 mart tarixində BMT Baş Assambleyasının 62-ci sessiyası çərçivəsində Azərbaycanın təqdim etdiyi "İşğal olunmuş Azərbaycan ərazilərində vəziyyətə dair" Qətnamə layihəsi ilə əlaqədar keçirilmiş səsvermədə Livan iştirak etməmişdir. Erməni mənbələrinin etiraf etdiyi kimi, Livan, Suriya və İran beynəlxalq müstəvidə Ermənistanı açıq şəkildə dəstəkləməsələr də Azərbaycanın haqlı mövqeyini də müdafiə etmirlər. Suriyada 100 min, İraqda 23 min, Küveytdə 10 min, Misirdə 6 min, Birləşmiş Ərəb Əmirliklərində 5000, İordaniyada 3 min ermənin məskunlaşdığı da unudulmamalıdır. Təsadüfi deyildir ki, ərəb ölkələrindəki mövcud erməni diasporuna istinad edən Ermənistan və ermənilərin "soyqırımı"na məruz qalması, ərəblərin də türklər tərəfindən əsrlərlə "istismar edilməsi" yalanından təbliğat vasitəsi kimi istifadə edir. Bununla da İƏT-ə üzv ərəb dövlətlərinin fəallığının azaldılması istiqamətində məqsədyönlü fəaliyyət göstərir. Ərəb ölkələrinin əksəriyyəti ilə diplomatik əlaqə qurmağa nail olmaqla yanaşı, Livan, Suriya, Misir və BƏƏ-də açdığı səfirliklər vasitəsilə Bəhreyn, Qətər, Küveyt və Omanda da akkreditə olunur (24, s.539). Ərəb ölkələrinin kütləvi informasiya vasitələri ilə yaxından əməkdaşlıq edərək guya "tarixi dostluq" və ermənilərin islam mədəniyyətinə "misilsiz xidmətləri" barədə yazılar dərc olunur. Həmçinin İsrailin Türkiyə ilə əlaqələrinə diqqət çəkilir, erməni müəlliflərinin ərəb dilində məqalələrində ərəblər üçün həssas mövzu olan sionizmlə pantürkizmin oxşarlığı barədə ictimai rəy formalaşdırılır. Livan və Suriyadakı erməni diasporunun yardımı ilə 2002-ci ildə Ermənistan prezidentinin körfəz ölkələrinə rəsmi səfərinin ardınca, xarici işlər və müdafiə nazirlərinin bölgə ölkələrinə səfərləri, 2005-ci ildə parlament spikerinin Küveytə və Bəhreynə səfəri gerçəkləşmişdir. Sonuncu səfər zamanı növbəti dəfə Ermənistana İƏT nəzdində müşahidəçi statusunun verilməsi məsələsi qaldırılmışdır (24, s.540). 2005-ci ildə xarici işlər nazirinin Misirə səfəri çərçivəsində Ərəb Dövlətləri Liqası ilə anlaşma memorandumu imzalanmışdır. Eyni zamanda, Suriya və Livanla hərbi əməkdaşlığın əsası qoyulmuş, Küveyt dövləti Ermənistanın yol şəbəkəsinin yaxşılaşdırılması məqsədi ilə kredit ayırmışdır. Hətta ərəb iş adamlarının Dağlıq Qarabağa sərmayə qoyması istiqamətində müəyyən təşəbbüsləri vardır.

Şübhəsiz, Ermənistanın cəhdlərini boşa çıxarmaq üçün həm İƏT çərçivəsində, həm də müsəlman ölkələri ilə ikitərəfli əlaqələr daha da inkişaf etdirilməlidir. Yuxarıda qeyd olunanlar bu istiqamətdə hələ görüləcək işlərin çox olduğuna dəlalət edir. Bu səbəbdən, ərəb dövlətləri başda olmaqla ərəb ölkələrinin aparıcı strateji mərkəzləri, institut və universitetləri ilə yaxın əməkdaşlığın qurulmasına, ərəb və ingilis dilini bilən gənclərin həmin qurumlarda təcrübə keçmələrinə nail olmaq vacibdir. Mövcud iqtisadi əlaqələrin inkişaf tempini nəzərə alaraq körfəz ölkələrində Azərbaycan diasporunun təşkili də əhəmiyyət kəsb edir. Azərbaycanın haqlı mövqeyinin çatdırılması məqsədilə ərəb ölkələrində ali məktəblərdə təhsil almış azərbaycanlı məzunların potensialından istifadə edilməsi, ayrı-ayrı ölkələrlə dostluq cəmiyyətlərinin qurulması məqsədəuyğun olardı. Müştərək elmi araşdırmaların aparılmasında əməkdaşlıq və ərəb müəlliflərinin imzası ilə nəşrlərin yayılmasını təmin etmək, Dağlıq Qarabağ həqiqətlərini əks etdirən elmi və bədii ədəbiyyatın tərcüməsini təşkil etmək də təbliğat baxımından ümumi işə töhfə verərdi. Müsəlman ölkələrinin nüfuzlu media orqanlarının vaxtaşırı Azərbaycana dəvət edilərək cəbhə bölgələrinə səfərlərinin təşkili praktikasını davam etdirmək, sosial medianın imkanlarından da səmərəli istifadə etmək lazımdır.

**Nəticə**

Müstəmləkəçiliyin və təcavüzün yeni formalarının ortaya çıxdığı müasir dövrdə müsəlman ölkələri mövcud siyasi, iqtisadi və mədəni gerçəkliklərə adekvat münasibət formalaşdırmalı, ədalət anlayışının tamamilə iflasa uğradığı ziddiyyətli beynəlxalq şəraitdə qloballaşan dünyanın qabaqcıl tendensiyaları ilə ayaqlaşmağı bacarmalıdırlar. İslam dünyasında qarşılıqlı inama əsaslanan münasibətlərin qurulması, mövcud şəraitə uyğun olaraq formaca deyil, mahiyyətcə konstruktiv əməkdaşlığın genişləndirilməsi prioritet istiqamət olmalıdır. İslam dinində müsəlmanların birlik və bərabərlik içində olmalarına böyük əhəmiyyət verilməklə yanaşı, birlik və bərabərliyin olmaması halında ortaya necə acınacaqlı bir mənzərə çıxacağının tərəfdaşlar tərəfindən anlaşılmasına nail olmaq lazımdır. İslam həmrəyliyi ideyalarının bütün islam coğrafiyasında yayılmasına yönəlik müsəlman ölkələrində ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilməlidir. Bu baxımdan, sivilizasiyaların kəsişdiyi məkanda yerləşən Azərbaycanın islam həmrəyliyinə nail olunması istiqamətində həyata keçirdiyi əhatəli tədbirlərin davam etdirilməsi son dərəcə vacibdir. Nəhayət birmənalı və ardıcıl şəkildə daima Azərbaycanı dəstəkləyən İslam Əməkdaşlığı Təşkilatına üzv ölkələr arasında ərəb dövlətlərinin əksəriyyət təşkil etməsi nəzərə alınaraq, Dağlıq Qarabağ həqiqətlərini ərəb dünyasına çatdırmaq, Ərəb Dövlətləri Liqasının nüfuzlu beynəlxalq və regional təşkilatlarda ərəb ölkələrinin siyasi dəstəyini qazanmaq ölkə diplomatiyası qarşısında duran başlıca vəzifə olmalıdır.

## ƏDƏBİYYAT

**I. Azərbaycan dilində**

1. Babaşlı Məmmədəli. Qlobal problemlərin həllində Şərq-Qərb əməkdaşlığının əhəmiyyəti. AMEA akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu və Rumınıyanın Babeş-Bolyai Universiteti Türkologiya və Mərkəzi Asiya Araşdırmalar İnstitutunun təşkilatçılığı ilə keçirilən "Müasir şərqşünaslığın aktual problemləri" mövzusunda beynəlxalq konfransın materialları, 01-02 iyun 2011, Bakı, s.25-26.
2. Babaşlı Məmmədəli. Məqsədyönlü islamofobiya kampaniyaları və dialoq zərurəti. "Şərqşünaslığın aktual problemləri" mövzusunda respublika elmi konfransı, BDU, 14-15 noyabr 2012, Bakı, s.359-360.
3. Babaşlı Məmmədəli. İslamda insansevərlik anlayışının mahiyyəti və mədəniyyətlərarası dialoq. AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun "Elmi Araşdırmalar" (elmi-nəzəri məqalələr toplusu). IX buraxılış, 2012, Bakı, s. 500-506.
4. Babaşlı Məmmədəli. İslam əxlaqı baxımından barış zərurəti, savaş anlayışı və prinsipləri. AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun "Elmi Araşdırmaları" (elmi-nəzəri məqalələr toplusu). X buraxılış, 2014, Bakı, s. 340-348.
5. Babaşlı Məmmədəli. Səbəb və nəticə baxımından Qərb mətbuatında islamın mövcud imici. "İslam həmrəyliyi-2017: reallıqlar və perspektivlər" mövzusunda respublika elmi-metodik konfransının materialları, BDU, 26-27 aprel 2017, Bakı, s.270-272.
6. Cabbarlı Hatəm. ABŞ Konqresinin Ermənistana və Dağlıq Qarabağa yardımı. http://atsam.org.az/, 01.04.2020.
7. Əmirov Mübariz. İnsan və cəmiyyət. Ali məktəblərin tarix fakültələri üçün dərs vəsaiti. Bakı, ADPU-nun nəşriyyatı, 2010.
8. Ərəbcə-azərbaycanca lüğət, II cilddə, Bakı, "Şərq-Qərb", 2007
9. Dini terminlər lüğəti. Bakı İslam Universiteti. Bakı: "İpək yolu" nəşriyyatı, 2010.
10. Hacı Mirməhəmməd Kərim Mircəfər əl-Ələvi əl-Hüseyni əl-Musəvi əl-Bakuvi."Kəşfülhəqayiq an nukətil-ayati vəd-dəqayiq"("Ayələrin məna və incəlikləriylə həqiqətlərinin açıqlanması"), 3 cilddə, Bakı, "İpəkyolu", 2014.
11. Hədislərlə İslam. Sərlövhə hədislər. Diyanet İşleri Başkanlığı. Bakı, "Nurlar" Nəşriyyat-Poliqrafiya Mərkəzi. 2017.

12. Xəlilov Səlahəddin. Dünya düzəninin pozulması və ideoloji böhran. http://525.az/site 25.03.2020.
13. İmam Nəvəvi. Riyazus-Salehin (Müxtəsər), Bakı: "Xəzər" nəşriyyatı, 2011.
14. "İslam həmrəyliyi və Qarabağ" mövzusunda Qarabağ Azadlıq Təşkilatının keçirdiyi elmi-praktiki konfransın materialları, 25 oktyabr 2017-ci il, Bakı.
15. Qurani-Kərim məalı. Azərbaycan dilinə tərcümə edənlər: Z.M.Bünyadov, V.M.Məmmədəliyev, Bakı: "İpək yolu" nəşriyyatı, 2007.

**II. Türk dilində**

16. Ağırman, Cemal. İslam Kardeşliğinin Evrensel Boyutu. Kutlu Doğum Haftası "Hz. Peygamber Kardeşlik Ahlakı ve Kardeşlik Hukuku" Sempozyumu. 21-22 Nisan 2012, Ankara, s. 494-509.
17. Arslan Kahraman. İslam Ülkeleri Arasında İşbirliğine Giden YoldaYeni Arayışlar. İstanbul Ticaret Üniversitesi, Ticari Bilimler Fakültesi, Uluslararası Yönetim İktisat ve İşletme Dergisi, Cilt 10, Sayı 21, 2014, s.179-198.
18. Canan, İbrahim. (ty.). Hadis Ansiklopedisi Kütüb-i Sitte Tercüme ve Şerhi. 18 Cilt, Akçağ Yayınları. İstanbul: 2014.
19. Deniz, Gürbüz. (2012). İslam Kardeşliğinin Temelleri. Eski Yeni: Üç Aylık Düşünce Dergisi, 2012, sayı: 25, (Temmuz 2012): s. 94-104.
20. Hazır Ümit Nazmi. "Azerbaycan ve İslam Dünyasının Kanayan Yarası: 'Karabağ'", İHH İnsani ve Sosyal Araştırmalar Merkezi, İstanbul: Şubat 2016.
21. İslâm Ansiklopedisi, Türkiye Diyanet Vakfı, 45 cilt, Ankara, 1988-2013.
22. Okumuş, Ejder.Kardeşlik Kavramının Sosyolojik Boyutları. Kutlu Doğum Haftası "Hz.Peygamber Kardeşlik Ahlakı ve Kardeşlik Hukuku"Sempozyumu. 21-22 Nisan 2012, Ankara, s.31-60.

**III. Rus dilində**

23. Агавельян Ю.В. Некоторые особенности социально-экономичес развития армянской общины в Ливане. Ближний Восток и современность. Сборник статей (выпуск пятнадцатый) М., 2002, с.3-9.
24. Араслы Эльман. Полвека на Ближнем Востоке (Воспоминание дипломата). Б.: «Элм и тахсил», 2012.
25. Валиахметова Г.Н. Исламский фактор в мировой политике: курс лекций:[учеб. пособие], - Екатеринбург, Изд-во Урал. ун-та, 2013.

## *РЕЗЮМЕ*

***Мамедали Бабашлы***

### *Концепция исламской солидарности и ее актуальность в контексте вызовов современной эпохи*

***Ключевые слова:*** *солидарность, помощь, братство, мусульманские страны, современные вызовы*

В данной статье подчеркивается необходимость сосуществования и общения человека, как социального существа с другими людьми в обществе. Рассматривается сущность таких понятий, как солидарность, взаимопомощь и братство в исламе. Дается анализ цели исламской солидарности и принципы взаимопомощи через призму Корана и Сунны Пророка. Исходя из трагедий в исламском мире рассматривается значимость солидарности, основанной на принципе справедливости. Отражаются суждения по поводу предстоящих задач формирования объективного общественного мнения в мусульманских странах по нагорно-карабахскому конфликту.

## *SUMMARY*

***Mammadali Babashli***

### *The Concept of Solidarity in Islam and its Importance in Terms of the Challenges of the Modern Era*

***Keywords:*** *solidarity, help, religious brotherhood, Muslim countries, modern challenges*

The present article analyzes the need for a social being to live in a community and to interact with other people. There was underlined the essence of the concepts of solidarity, help and brotherhood in Islam. There is also analyzed the purpose of Islamic solidarity, and the principles of assistance through the prism of the Qur'an and Sunnah. The importance of solidarity based on the principle of justice in the context of the tragedies taking place in Islamic geography today is emphasized. The attention is given to the tasks ahead in the formation of an objective public opinion in Muslim countries concerning the Nagorno-Karabakh conflict.